

*Tofiq Nəcəfli*
*Azərbaycanın XV-XVIII əsrlər tarixi şöbəsinin müdiri,*
*tarix elmləri doktoru, dosent*

# SƏFƏVİLƏR DÖVLƏTİ (1501-1736-CI İLLƏR)

## *Səfəvilər dövləti XVI əsrdə*

XV əsrin sonlarında Azərbaycanın müxtəlif bölgələrində baş vermiş çəkişmələr, feodal pərakəndəliyi və Səfəvi şeyxlərinin nüfuzunun artması şəraitində Ağqoyunlu dövləti tamamilə dağılmaq, iqtidarını itirmək ərəfəsində idi. Bu dövrdə "İraq-i Əcəm və Azərbaycan məmləkətlərində hərc-mərclik idi və hər iki gündən bir kimsə padşah olurdu".[1] Bu zaman Ağqoyunlu dövləti daxilindəki vəziyyət, səltənətin zəifləməsi Səfəvilərin hakimiyyət uğrunda mübarizəsi üçün əlverişli şərait yaradırdı. Beynəlxalq vəziyyət də Səfəvilərin yüksəlişi üçün xeyli münasib idi.[2]

1499-cu ilin yayında 12 yaşlı İsmayıl yaxın silahdaşları ilə Lahicanı tərk edərək Astaraya, oradan isə öz tərəfdarlarını toplamaq məqsədilə Şərqi Anadoluya hərəkət etdi. Ərzincanda keçirilən görüşdə İsmayılın bayraqları altında *şamlı, rumlu, ustaclı, təkəli, zülqədər, əfşar, qacar, varsağ* türk tayfalarından, həmçinin Qaradağ sufilərindən ibarət 7 min qazi toplandı.[3] Ərzincanın toplanış yeri kimi seçilməsində məqsəd Qaramanoğlunun osmanlılara qarşı üsyanına qatılmaq idi. Ancaq osmanlılar qızılbaş müridlərinin İsmayılla görüşünə mane olduğu üçün Səfəvi şeyxi öz planını dəyişdirdi və Şirvan üzərinə yürüşə qərar verdi.[4]

1500-cü ilin payızında Şirvanşahın qoşunu Gülüstan qalası yaxınlığında darmadağın edildi. Fərrux Yasar döyüşdə öldürüldü və Şamaxı şəhəri tutuldu. 1501-ci ilin

---

[1] Qəzvini Budaq Münşi. Cəvahirül-əxbar. Müqəddimə, teshih və talikat: Muhsin Bəhram Nejad. Miras-ı Məktub, Tehran: 1387, s. 112.
[2] The Cambridge History of Iran, vol. VI: The Timurid and Safavid Periods (Edited by P.Jackson and L.Lockhart). Cambridge University Press, 1986, p. 210.
[3] Qəzvini Abdüllatif. Safevi tarihi. Çeviren ve Notlandıran Hamidreza Mohemmednejad. Ankara: Birleşik, 2011, s. 30-32; Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, s. 44-45.
[4] Allouche A. Osmanlı-Safevi ilişkileri. Kökenleri ve gelişimi. Çeviren: Ahmed Emin Dağ. Anka Yayınları, İstanbul: 2001, s. 89-93.

yazında isə qızılbaşlar Bakını ələ keçirdilər. Gülüstan, Buğurd və Surxab qalalarında isə müqavimət davam edirdi. İsmayılın əsas düşməni – Ağqoyunlu sultanı Əlvənd böyük ordu toplayıb şirvanlılarla birləşmək üçün hərəkət etdiyi üçün İsmayıl və tərəfdarları Şirvanı tərk etməyə məcbur oldular.[5] Ağqoyunluların qızılbaşların Kür çayını keçməsinə mane olmaq cəhdi uğursuz oldu. İsmayıl sürətli həmlə ilə Naxçıvana doğru yönəldi. 1501-ci ilin ortalarında İsmayıl Şərur düzündə Əlvənd üzərində qəti qələbə qazandı. Şərur qələbəsindən sonra "aləmin pənahı olan şah Təbrizə yollandı və Azərbaycan səltənətinin taxtına əyləşdi".[6] İsmayılın Təbrizə gəlişi ilə "Azərbaycanın səltənət taxtı olan bu şəhər onun padşahlıq ehtişamı ilə süsləndi".[7] İsmayılın (1501-1524) hakimiyyətə gələrkən özünü məhz "Azərbaycan şahı" elan etməsini Qərb tarixçiləri də təsdiq edir.[8]

Uzun Həsənin nəvəsi olan İsmayıl Ağqoyunlular sülaləsinin qanuni varisi idi. Ağqoyunluların paytaxtına sahib olan İsmayıl babasının sarayında şahlıq tacını başına qoydu. Onun adı ilə sikkələr zərb edildi, Təbrizin cümə məscidində xütbələr oxundu. Beləliklə, 1501-ci ildə Azərbaycan Səfəvi dövləti rəsmən yarandı.

1502-ci ildə Ağqoyunlu Əlvənd üzərində ikinci qələbədən sonra Şah İsmayılın hərbi-siyasi fəaliyyətinin 1499-1502-ci illəri əhatə edən və Azərbaycanın birləşdirilməsi məqsədi güdən ilk mərhələsi başa çatdı və "Azərbaycan məmləkəti qüdrətli dövlətin düşmənlərinin vücudunun xəbisliyindən pak oldu".[9]

Şah İsmayıl dövlətini Ağqoyunlu sərhədləri daxilində bərpa etməyə can atırdı.[10] Şah İsmayılın hərbi-siyasi fəaliyyətinin 1503-1508-ci illəri əhatə edən ikinci mərhələsi məhz bu məqsədin həyata keçirilməsinə yönəldi. 1503-cü ilin yayında Şah İsmayıl Həmədan yaxınlığında Almabulağı döyüşündə Ağqoyunlu Muradın 70 minlik ordusunu məğlub etdi. Qızılbaşlar İsfahan, Kaşan, Qum, Yəzd və Kirman şəhərlərini ələ keçirdilər. 1508-ci ilədək bütün İran (Xorasandan başqa), Diyarbəkr və Ərəb İraqı Şah İsmayıl tərəfindən fəth edildi.[11]

1510-cu ilin sonlarında Şah İsmayıl Şərqdə – Mərv yaxınlığında Şeybani Məhəmməd xana əsaslı zərbə endirdi və Xorasanı ələ keçirdi. Bu qələbədən sonra Azərbaycan Səfəvilər dövlətinin ərazisi qərbdə Fərat çayından şərqdə Amudərya çayına

---

[5] Münşi İsgəndər bəy. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.e.n. Namiq Musalı. Bakı: Təhsil, 2009, s. 82-83.

[6] Qəzvini Budaq Münşi. Cəvahirül-əxbar, s. 118-119; Kazvini Budak Münşi. Safeviler. Cevahirül-ahbar (Başlangıçtan 1576ya Kadar Safevilerin Tarihi). Mukaddime, Tercüme ve Notlar: Şefaattin Deniz. Bilge Kültür-Sanat, İstanbul: s. 62.

[7] Qəzvini Abdüllatif. Safevi tarihi, s. 34.

[8] Lokhart L. The Fall of the Safavi Dinasty and Afghan Occupation of Persia. Cambridge: 1958, p.19.

[9] Do kitab-i nəfis əz mədarek-i əvvəliyye-yi Səfəviyan: "Xülasətüt-təvarix" və "Tarix-i Molla Kamal" teshih və tehşiye İbrahim Dehqan. Eraq: Çapı fərvərdin, 1336, s. 4; Musalı N. I Şah İsmayılın hakimiyyəti. Bakı: Nurlan, 2011, s. 141.

[10] Roemer H.R. Kızılbaş Türkmenler: Safevi Teokrasisinin Kurucuları ve Kurbanları. //Türk Kültürü ve Hacı Bektaş Veli, 2006, Sayı 38, s. 85.

[11] Bax: Rumlu Həsən bəy. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Fars dilindən tərcümə və şərhlər: AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.ü.f.d., dos. Namiq Musalı. Kastamonu: 2017, s. 383-386.

kimi genişləndi.[12]

Azərbaycan Səfəvilər dövlətinin yaranması və hərbi-siyasi uğurlarının artması, qərbdə Osmanlı sultanlarını narahat edirdi. Osmanlı sultanı II Bəyazid Səfəvilər dövlətini rəsmən tanısa da, oğlu Sultan Səlimin dövründə (1512-1520) münasibətlər xeyli kəskinləşdi və düşmənçilik xarakteri aldı. Osmanlı hakim dairələri bidətçi hesab etdikləri qızılbaşlara qarşı mübarizəni İslamın təmizliyi uğrunda cihad kimi qələmə verirdilər. Dini ixtilaflar hər iki dövlətin gerçək siyasi və iqtisadi mənafelərini həyata keçirmək üçün zəruri idi. Mübarizə zəngin şəhərlər, məhsuldar torpaqlar, Avropa-Asiya ticarətinin gəlirli yolları uğrunda gedirdi. Bursanı Yaxın və Orta Şərqin ən böyük ticarət mərkəzi olan Təbrizlə birləşdirən *"Osmanlı iqtisadiyyatının şah damarı olan Təbriz-Toqat-Bursa ipək yolu"* Osmanlı fəthlərini Şərqə doğru istiqamətləndirən əsas amil olmuşdu.[13]

Osmanlı-Səfəvi münasibətlərinin kəskinləşməsini şərtləndirən digər başlıca amil – Qərbi Avropa dövlətlərinin türk imperiyalarını bir-biri ilə savaşmağa yönələn siyasəti idi.

Azərbaycana hücum zamanı Sultan Səlim bir-birinin ardınca Şah İsmayıla dörd məktub yolladı. Osmanlı sultanının üçüncü məktubunda diqqəti cəlb edən mühüm cəhət Səfəvi səltənətinin etnik nöqteyi-nəzərdən İran yox, məhz Azərbaycan dövləti olduğunu təsdiqləməsidir.[14] Sultan Səlim dəfələrlə Səfəvi hökmdarını Azərbaycanı ələ keçirməklə hədələdiyini, lakin sonuncunun onun təhdidlərini qulaq ardına vurduğu üçün Şah İsmayılı açıq döyüşə çağırmaqdan savayı çarəsi qalmadığını aydın şəkildə bildirirdi.[15]

1514-cü il avqustun 23-də rəqiblər Çaldıran düzündə (Maku şəhəri yaxınlığında) qarşılaşdılar. Şah İsmayılın qoşunu sayca osmanlı ordusundan iki dəfə az idi. Sultan Səlim kifayət qədər topa və digər odlu silahlara malik idi. Buna görə də qızılbaş süvariləri artilleriyaya və yeniçəri atıcıları qarşısında davam gətirə bilmədilər. Qızılbaş döyüşçüləri göstərdiyi igidliyə, şücaətə baxmayaraq böyük itkilərə məruz qaldılar və geri çəkilməli oldular. Osmanlılar da xeyli itki verdilər. Bu uğursuzluq Şah İsmayılı mübarizəni davam etdirməkdən çəkindirmədi. Osmanlı sultanı sentyabrda paytaxt Təbrizi ələ keçirsə də, bir həftədən sonra əhalinin müqaviməti və Səfəvi ordusunun toplanması xəbərini alaraq şəhəri tərk etdi.[16] Çaldıran döyüşündəki uğursuzluq Ərzincanın, Diyarbəkrin, Mardinin və Şərqi Anadolunun bəzi vilayətlərinin itirilməsinə səbəb oldu, eyni zamanda səfəvilərin Kiçik Asiya qızılbaşlarına özünün zərbə

---

[12] Bax: Rumlu Həsən bəy. Əhsənüt-təvarix, s., s. 404-411.

[13] İnalcik H. Bursa: XV. Asrda Saneye ve Tarihine Dair Vesikalar // TTK. Belleten, c. XXIV, sayı 93, Ankara: 1960, s. 51.

[14] Feridun bey. Münşeatüs-selatin. c. 1. İstanbul: 1274, s. 383; Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Fars və ərəb dillərindən tərcümə: Şahin Yəhyayev, Elmin Əliyev. Bakı, Şərq-Qərb, 2014, s. 82-83.

[15] Feridun bey. Münşeatüs-selatin, c. 1, s. 386-387; Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu, s. 95-96.

[16] Bax: Rumlu Həsən bəy. Əhsənüt-təvarix, s. 424-427.

qüvvəsi kimi baxmasının əsassızlığını göstərdi. Şah İsmayılı müşayiət edən məğlubedilməzlik fikri əsaslı surətdə sarsıldı.

Şah İsmayıl Çaldıran məğlubiyyətdən sonra başlıca diqqətini Səfəvilər dövlətinin daxili problemlərinin həllinə yönəltdi. Ümumi mənafelər, Osmanlı təhlükəsinə qarşı mübarizə zəminində Avropa dövlətləri – Venesiya, Almaniya, Portuqaliya və Macarıstanla diplomatik münasibətlər canlandı. Müqəddəs Roma imperiyasının imperatoru V Karl ilə hərbi ittifaq bağlanmasına təşəbbüs göstərildi. Şah İsmayılın hakimiyyəti dövründə Şəki hakimliyi, Şirvanşahlar dövləti, gürcü çarları asılı vəziyyətə salındı. Şah İsmayıl Şəkidən Təbrizə qayıdarkən Sərab yaxınlığında (1524-cü il mayın 23-də) vəfat etdi.[17]

Azərbaycan dövlətçiliyi və mədəniyyət tarixində Şah İsmayılın müstəsna xidmətləri vardır. Məhz onun dövründə Səfəvi dövləti Yaxın və Orta Şərqin hegemon dövlətlərindən birinə çevrildi. İlk Səfəvi şahı kənd təsərrüfatını dirçəltmək, şəhərlərdə sənətkarlıq və ticarəti inkişaf etdirmək, xarici ölkələrlə iqtisadi və siyasi əlaqələri genişləndirmək siyasəti yürüdürdü. Qızılbaşlığı rəsmi dövlət məzhəbi səviyyəsinə qaldıran Şah İsmayıl böyük dövlətin ərazisində yaşayan müxtəlif xalqları vahid ideologiya ətrafında birləşdirərək Səfəvilər dövlətinin daxili möhkəmliyini təmin etmək məqsədi güdürdü.

Şah İsmayıl az yaşamasına, vaxtının çoxunu dövlət işlərinə sərf etməsinə baxmayaraq, zəngin və çoxcəhətli bir irs yaratmışdır. O, həm əruz, həm də heca vəznində, həm epik, həm də lirik janrlarda qələmini işlətmiş, yaddaqalan, örnək ola bilən əsərləri ilə Azərbaycan ədəbiyyatını zənginləşdirmişdir.

Şah İsmayılın vəfatından sonra hakimiyyətə onun azyaşlı oğlu Təhmasib (1524-1576) gəldi. Qızılbaş əmirləri (rumlu, təkəli, ustaclı) arasında yüksək vəzifə və iqtidar uğrunda on il davam edən çəkişmələr dövlətin zəifləməsinə səbəb oldu.[18] Artıq iyirmi yaşına çatmış Şah Təhmasib qızılbaş əmirlərinin sıxıntılı himayəsindən çıxmağı qərara aldı və dövlət hakimiyyətini öz əlinə aldı.

Şirvanşahlar dövləti ərazisində baş vermiş qarışıqlıqdan istifadə edən Təhmasib 1538-ci ildə xalq üsyanının başlanması ilə əlaqədar oraya qoşun yeritdi və Şirvanı Səfəvilər dövlətinə birləşdirdi. 1551-ci ildə səfəvilər Şəki hakimliyini də ləğv etdilər.

Şah Təhmasib dövründə də Osmanlı sultanları Azərbaycanı və bütün Cənubi Qafqazı fəth etmək planlarından əl çəkmədilər. Sultan Süleyman dörd dəfə (1534, 1535, 1548 və 1554-cü illərdə) Azərbaycana yürüş təşkil etdi. Bu yürüşlər zamanı osmanlı qoşunları paytaxt Təbrizi dəfələrlə ələ keçirdilər və onu talan etdilər. Osmanlılara qarşı mübarizədə Səfəvi hökmdarı "viran olunmuş ərazi" taktikasını həyata keçirdi: ərzaq ehtiyatları məhv edilir, su mənbələri doldurulur, taxıl əkinləri yandırılırdı. Xalqın artan müqaviməti, qızılbaş qoşunlarının genişlənən hücumları osmanlılara

---

[17] Rumlu Həsən bəy. Əhsənüt-təvarix, s. 445; Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti, s. 65.
[18] Rumlu Həsən bəy. Əhsənüt-təvarix, s. 486.

istila olunmuş ərazilərdə möhkəmlənmək imkanı vermirdi. Hərbi yürüşlərin uğursuzluğuna əmin olan Sultan Süleyman 1555-ci ildə Amasyada sülh müqaviləsini imzalamağa məcbur oldu. Sülhə görə Şərqi Anadolu, İmeretiya, Miqreliya, Quriya və Ərəb İraqı Osmanlı dövlətinə verildi, Kartli, Kaxeti və Mesxeti Səfəvi dövlətinin nəzarətində qaldı.[19] Bununla da savaşa son qoyuldu. Qılınclar qınlarına, mizraqlar yerlərinə sancıldı. Artıq buralarda savaş havası çalınmayacaqdı. İki hökumət qardaşlığa əsaslanaraq təbəələrinin rifahı üçün çalışacaqdı.[20]

Şah Təhmasib nəinki dövləti Osmanlı sultanlarının və şeybanilərin təcavüzündən qoruya bildi, Böyük Moğol dövləti ilə yaxın dostluq münasibətləri yaratdı, Avropa dövlətləri ilə siyasi və diplomatik əlaqələr genişləndi. Avropa dövlətlərinin Səfəvi şahını osmanlılara qarşı müharibəyə sövq etmək üçün göstərdiyi bütün təşəbbüslər cavabsız qaldı.[21]

Şah Təhmasibin ölümündən sonra onun varisləri arasında hakimiyyət uğrunda mübarizə başlandı. Qızılbaş əyanlarının yardımı ilə II Şah İsmayıl hakimiyyətə gəldi (1576-1577), il yarımdan sonra isə sarayda təşkil olunmuş sui-qəsdin qurbanı oldu.[22]

1578-ci ilin fevralında Məhəmməd Xudabəndə (1578-1587) hakimiyyətə gətirildi. Onun zəif iradəli olmasından istifadə edən əmirlərin dövlətin yüksək siyasi və hərbi vəzifələrini ələ keçirməyə çalışması qızılbaş tayfaları arasında çəkişmələri dərinləşdirdiyi üçün mərkəzi hakimiyyət xeyli zəiflədi.

Osmanlı sultanı III Murad (1574-1595) Səfəvilər dövlətinin daxilindəki çəkişmələrdən istifadə etdi. 1578-ci ildə 100 minlik osmanlı ordusu Səfəvi ərazisinə daxil oldu. 12 illik müharibə başladı. Şirvan əyanlarının sultan tərəfindən təhrik edilmiş üsyanı Şirvanın ələ keçirilməsini asanlaşdırdı. III Muradın təhriki ilə Krım xanının çoxsaylı qoşunu Dərbənd üzərindən Azərbaycana yürüş etdi.[23] Qızılbaş qoşunları iki cəbhədə: Osmanlı imperiyasına və Krım xanlığına qarşı ağır mübarizə aparmalı oldular.

Osmanlı sultanı itkiləri nəzərə almayaraq bütün Cənubi Qafqazın, habelə Azərbaycanın işğqalını qətiyyətlə həyata keçirməyə çalışırdı. Osmanlı qoşunları 1583-cü ildə Çuxursədi, 1585-ci ildə ciddi müqavimətə baxmayaraq Təbrizi, 1588-ci ildə isə Gəncəni ələ keçirdilər.[24] Səfəvilərin hərbi uğursuzluqları daha çox qızılbaş əmirləri arasında baş verən çəkişmələrlə bağlı idi. Bunun nəticəsində Azərbaycan ərazisi tədricən Osmanlı qoşunları tərəfindən istila edildi.

1587-ci ildə daxili çəkişmələr və xarici hücumların Səfəvi dövlətinin qüdrətini sarsıtdığı çox ağır bir şəraitdə cəsur və vətənpərvər Mürşüdqulu xan Ustaclı başda

---

[19] Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti, s. 92.
[20] Celalzade Mustafa Çelebi. Kanuninin Tarihçisinden Muhteşem Çağ. Kanuni Sultan Süleyman. Tabakatül Memalik ve Derecatül-Memalik. Notlandırarak Hazırlayan Ayhan Yılmaz. Kariyer Yayınları, İstanbul: 2011, s. 344.
[21] Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006, s. 244-245.
[22] Rumlu Həsən bəy. Əhsənüt-təvarix, s. 637, 646.
[23] Bax: Münşi İsgəndər bəy. Tarix-i alamara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi), s. 504, 520-521.
[24] Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti, s. 179, 182-184, 194.

olmaqla türk qızılbaş əmirləri tərəfindən Abbas Mirzə (1587-1629) Qəzvində taxta çıxarıldı.[25] Bu zaman Azərbaycan ərazisinin çox hissəsi Osmanlıların, Xorasan vilayəti isə Şeybanilərin nəzarəti altına keçmişdi. Belə bir vəziyyətdə Şah Abbas 1590-cı ilin martında Osmanlı sultanı ilə sülh bağlayaraq başlıca diqqəti dövlətin daxili sabitliyini təmin etməyə yönəltdi. Sülhün şərtlərinə görə Azərbaycan (Qaradağ, Ərdəbil və Talış əyalətləri istisna olunmaqla) torpaqları, Cənubi Qafqaz əraziləri, İranın bəzi qərb vilayətləri Osmanlı dövlətinin tərkibinə daxil edildi. Uzun illərdir Cənubi Qafqaz ərazisini tamamilə hakimiyyəti altına salmağa çalışan Osmanlı imperiyası, nəhayət Azərbaycanla əlaqədar xarici siyasət planlarını həyata keçirə bildi. Lakin bu, müvəqqəti uğur idi.[26]

Şah Abbas xarici işğallara məruz qalmış və daxilən zəifləmiş dövləti məhv olmaqdan xilas etmək, qızılbaş əyanlarının özbaşınalığına son qoymaq və itirilmiş əraziləri geri qaytarmaq məqsədilə inzibati idarə sistemi, ordu quruculuğu və sosial-iqtisadi sahələrdə islahatlar keçirdi. Nəticədə Səfəvi dövləti nəinki əvvəlki qüdrətini bərpa etdi, hətta daha da gücləndi. Dövlətin əsas dayağı olan daimi nizami ordu yaradıldı. 1598-ci ildə Şah Abbas dövlətin şimal-şərq sərhədlərində Şeybanilərə qarşı yürüşə çıxmağı asanlaşdırmaq məqsədilə paytaxtı Qəzvindən İsfahana köçürdü.[27] Bütün bu dəyişikliklərə baxmayaraq, orduda və İsfahan sarayında bu sülalənin hakimiyyətinin sonlarına qədər Azərbaycan (türk) dili hakim dil olaraq qalırdı. Hətta diplomatik yazışmalar bu dildə aparılır, hərbi və saray rütbələrinin adları əsasən türkcə qalırdı.

Yeni yaradılan nizami ordu 1598-ci ildə Herat yaxınlığında baş verən döyüşdə Şeybanilər üzərində qələbəni təmin etdi və Xorasan vilayəti tamamilə azad edildi.[28]

R.Seyvorinin fikrincə, Şah Abbas "Böyük" adına layiq olan bütün keyfiyyətlərə sahib idi. O, heç vaxt ehtiyatlılığını əldən verməyən iti zəkalı bir strateq idi. Məqsədlərinə çatmaq üçün müharibəyə deyil, diplomatiyaya müraciət edər və planlarını gerçəkləşdirmək üçün böyük səbr göstərərdi. O, sədaqətsiz məmurlarını cəzalandırmaqda amansız olduğu kimi, etibar etdiyi adamlara qarşı sevgisində də bir o qədər ehtiraslı və səmimi idi.[29]

## *Səfəvilər dövləti XVII-XVIII əsrin əvvəllərində*

Şah Abbas Səfəvi dövlətinin işğal olunmuş ərazilərini, xüsusilə dövlət üçün böyük iqtisadi əhəmiyyəti olan Azərbaycan torpaqlarını Osmanlı işğalından azad etmək üçün müharibəyə ciddi hazırlıq gördü.

[25] İsgəndər bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi), s. 690.
[26] Mahmudov Y.M. Azərbaycan diplomatiyası, s. 267-268.
[27] Savory R. Safeviler Devrinde İran. Çeviren: Özgür Kolçak. Bilge Kültür-Sanat, İstanbul: 2021, s. 170.
[28] Bax: Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi, I Kitab, s. 1046-1051; Nəcəfli T.H. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı: Turxan NPB, 2020, s. 209.
[29] Savory R. Safeviler Devrinde İran, s. 110.

1607-ci ildə Şah Abbas bütün Azərbaycanı, habelə Kartli-Kaxetini osmanlılardan geri ala bildi. Azərbaycanda və ona qonşu olan ölkələrdə osmanlı zülmünə qarşı genişlənən azadlıq mübarizəsi səfəvilərin uğurlarına əhəmiyyətli şərait yaratdı. Azərbaycanda azadlıq hərəkatı məşhur Koroğlu kimi əfsanəvi qəhrəmanları və digər mübarizləri yetişdirdi. Koroğlunun rəhbərliyi altında cəlalilərin Səfəvi şahına xidmət etdiyini dövrün qaynağı da təsdiq edir. Cəlalədin Münəccim Yəzdi yazır: “Bu xanədanın çörəyi və duzu ilə özünün və atalarının sümüklərini bəsləmiş olan Sədlu tayfa başçısı Əliqulu bəy nankorluq edərək osmanlıların xidmətinə girərək çaşnigir (süfrəçibaşı) vəzifəsini əldə etmişdi. Koroğlu Pasin ətrafında onu, oğlunu və anasını tutub şahın hüzuruna göndərdi”.[30]

Osmanlı-Səfəvi müharibələri fasilələrlə 1639-cu ilə ilədək davam etdi və Qəsri-Şirin sülhü ilə başa çatdı. Sülh bağlanması uzun sürən Osmanlı-Səfəvi müharibələrinə son qoydu, hər iki dövlət arasında münasibətləri nizama saldı, Azərbaycanda on illərlə boşalmış şəhərlərin bərpası, iqtisadiyyatın inkişafı üçün şərait yaratdı.

Bu müharibələr Azərbaycana böyük ziyan vurdu, əhalinin talan edilməsi, kütləvi şəkildə əsir aparılması, minlərlə insanın həlak olması, qiymətli mədəniyyət abidələrinin məhv edilməsi ilə müşayiət olundu. Azərbaycanın ticarət və sənətkarlıq mərkəzləri – Təbriz, Şamaxı, Naxçıvan, İrəvan, Gəncə şəhərləri xüsusilə böyük dağıntılara məruz qaldılar.

XVII əsrin 40-cı illərindən etibarən Azərbaycanda nisbi dinc inkişaf dövrü başlandı. II Şah Abbasın (1642-1666) çevik diplomatik fəaliyyəti sayəsində Səfəvi dövlətinin beynəlxalq əlaqələri daha da genişləndi. Ölkə ərazisində sabitliyin bərpa olunması şaha geniş ticarət əlaqələri yaratmağa imkan verdi. Qonşu dövlətlərlə, həmçinin Avropa ölkələri ilə genişlənən iqtisadi əlaqələr nəticəsində ölkəyə gələn əcnəbi tacirlərin sayı durmadan artmağa başladı.

1648-ci ildə Səfəvi ordusu II Abbasın əmri ilə Moğol imperiyası tərəfindən işğal edilmiş Qəndəharı geri qaytarmaq üçün yürüşə başladı. Yüksək döyüş ruhu və qətiyyət nümayiş etdirən qızılbaş əsgərləri 1649-cu ilin fevralında Qəndəharı düşməndən azad etdilər. Moğol hökmdarı Şah Cahanın (1628-1658) Qəndəharı geri almaq məqsədilə təşkil etdiyi yürüşlər uğursuz oldu.[31]

II Abbasın xarici siyasətdə əldə etdiyi ən mühüm nailiyyət isə heç şübhəsiz ki, Osmanlı dövləti ilə dostluq münasibətlərini qoruyub saxlaması və daha da möhkəmləndirməsi idi. O da ulu babası kimi ədalətə can atır, zorakılıq və təzyiq iddiaları ilə bağlı şikayət edilən dövlət məmurları barədə təcili tədbir görürdü. II Abbas həftədə üç gün hərbçi və ya mülki şikayətçilərin işlərinə baxan ədalət məhkəməsinə sədrlik

---

[30] Yəzdi Cəlaləddin Münəccim. Tarix-i Abbasi. Be kuşeşe Seyfulla Vəhidi. Tehran: İntişarat Vəhid. Çapı əvvəl, 1366, s. 305.

[31] Bax: Vəhid Məhəmməd Tahir. Sərqozaşte Şah Abbas devvom, s. 57-59; Həsənalıyev Z., Bayramlı Z. II Şah Abbasın hakimiyyəti illərində Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti. Bakı: Elm, 2011, s. 61-64.

edirdi. İki gün ərzində isə imperiyanın hər yerindən toplanan şikayətləri dinləyirdi. O, ulu babası kimi dini məsələlərə də tolerantlıqla yanaşırdı, lakin katolik məzhəbinə qarşı ciddi dözümlülük nümayiş etdirmirdi. Onun yəhudilərə baxışı da eyni tolerantlığa malik deyildi.[32]

II Abbasın hakimiyyəti illərində ölkədə quruculuq işləri vüsət aldı. Onun dövründə ölkənin maraqlarına zərbə vuran bəzi hadisələr baş verdi. Moskva dövləti Şimali Qafqaz xalqları ilə səfəvilərin əlaqəsini pozmaq və öz gələcək müstəmləkəçilik planlarını həyata keçirmək üçün Səfəvi dövlətinin sərhəd məntəqələrində Göysu çayı üzərində bir neçə qala inşa etdirib, mühafizə dəstələri yerləşdirdi. 1653-cü ildə Şirvan bəylərbəyi Xosrov xanın rəhbərlik etdiyi qızılbaş ordusu bir neçə döyüşdən sonra qələbə qazanaraq həmin qalaları dağıtdı, şimal sərhədlərinin təhlükəsizliyini təmin etdi.[33]

II Abbas "dövlət" torpaqlarının "xassə" statusuna keçməsini davam etdirdi və belə torpaqları xeyli genişləndirdi. İş o yerə çatı ki, müharibə vaxtı sərhədyanı vilayətlərin idarəçiliyinə gətirilən hərbi valilər istisna olmaqla, demək olar ki, bütün ölkə şahın bilavasitə təyin etdiyi idarəçilərin ixtiyarında idi. Bu siyasət Səfəvilərin ilk dövrlərində bütün əzəməti ilə meydana çıxan qızılbaş tayfalarının hakimiyyətinin az qala yox olmasına səbəb olsa da, II Abbas imperiyanın sərhədlərini qorumağa müvəffəq oldu.

1666-cı ildə II Abbasın dünyasını dəyişməsi onun Səfəvi imperiyasının daha da möhkəmlənməsinə yönələn planlarının həyata keçməsinə imkan vermədi. Onun oğlu Səfi Mirzə Şah Süleyman adı ilə taxta çıxdı. Şah Süleymanın (1666-1694) dövlət işlərinə biganəliyi xarici siyasət sahəsində durğunluq, ölkənin maraqlarının qorunmaması, ordunun gücünün zəifləməsi ilə müşayiət olundu.[34] Şah Süleyman dövründə dövlətin bütün inzibati strukturunun zirvəsi və dünyəvi məsələlərdə ən böyük gücün sahibi olan şah hakimiyyəti ciddi tənəzzüllə üzləşdi.

Bütün bunlara baxmayaraq, Şah Süleymanın həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində ölkə sərhədləri sabit qaldı. Ölkənin şərq sərhədlərində Buxara xanlarının Xorasana talançılıq yürüşlərini çıxmaqla demək olar ki, ciddi bir hadisə baş vermədi.[35] Şah Abbas tərəfindən yenidən qurulan Səfəvi dövləti XVII əsrin ikinci yarısında artan fəsadları və tənəzzülü gizlədə biləcək bir əzəmətə malik idi.

Avropa ölkələrinin elçiləri İsfahana gələrək, Şah Süleymana Osmanlı dövlətinə qarşı ittifaqa girməyi, əlverişli şəraitdən istifadə edərək Bağdadı və digər itirilmiş əraziləri geri almağı təklif etsə də, şah Osmanlı sultanı ilə bağlanmış sülhü qoruyub

[32] Savory R. Safeviler Devrinde İran, s. 254-255.
[33] Vəhid Məhəmməd Tahir. Sərqozaşte Şah Abbas devvom, s. 55-56; Həsənəliyev Z., Bayramlı Z. II Şah Abbasın hakimiyyəti illərində Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti, s. 42.
[34] Savory R. Safeviler Devrinde İran, s. 255.
[35] Bax: Nəcəfli T.H. Azərbaycan Səfəvi imperiyasının Türküstan xanlıqları ilə siyasi əlaqələri. Bakı: "İdeal-Print" MMC, 2021, s. 260-276.

saxlamağa və onunla dinc münasibətlərdə olmağa üstünlük verdiyini bildirdi.[36]

Şah Sultan Hüseyn (1694-1722) dövründə də Avropa dövlətlərinin Osmanlı imperiyasına qarşı mübarizədə Səfəvi dövlətindən faydalanmaq təşəbbüsləri nəticəsiz qaldı. Səfəvi şahı geosiyasi vəziyyəti nəzərə alaraq həm Osmanlı imperiyası ilə, həm də Avropa dövlətləri ilə münasibətləri qoruyub saxlamaqda maraqlı olduğunu bir daha təsdiq etdi.

XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Yaxın Şərqin böyük imperiyalarından biri olan Səfəvi dövləti iqtisadi böhran və siyasi tənəzzül dövrünə qədəm qoydu. Belə bir vəziyyətdə şah, saray əyanları və dövlət məmurları boşalmış dövlət xəzinəsini doldurmağın yeganə yolunu vergi və mükəlləfiyyətlərin sayını və həcmini artırmaqda görürdülər. Şahın vergiləri artırmaqla gəlirlərin azalmasının qarşısını almaq istəyi kənd təsərrüfatı, sənətkarlıq və ticarətin inkişafını daha da çətinləşdirdi.

Şah Sultan Hüseyn dövründə yüksək vəzifəli şəxslər, məmurlar arasında rüşvətxorluq, inzibati vəzifələrin açıq şəkildə satılması praktikası geniş yayıldı. Bu, Səfəvi imperiyasının bir çox yerlərində şah üsuli-idarəsinə və yerli hakimlər əleyhinə üsyanların baş verməsinə səbəb oldu. 1707-1711-ci illərdə Şirvanda baş verən üsyanlar daha geniş vüsət alaraq Hacı Davudun rəhbərliyi altında 1719-1721-ci illərdə uğurla başa çatdırıldı, Şamaxı nəzarət altına alındı.

Səfəvi imperiyasının taleyini həll edən çox mühüm çıxış Qəndəharda yaşayan gilzay əfqan tayfasının üsyanı oldu. 1717-ci ildə Qəndəharı ələ keçirən əfqanlar səkkiz aylıq mühasirədən sonra 1722-ci ilin oktyabrında İsfahanı tutdular, Sultan Hüseyn şah tacını Mir Mahmuda təhvil verdi.[37] Paytaxtın ələ keçirilməsi ilə Səfəvi imperiyası süqut etdi və onun ərazilərinin böyük bir hissəsi əfqanların işğalı altına düşdü.

Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən Rusiya və Osmanlı imperiyaları 1724-cü ilin yayında İstanbul müqaviləsini imzalayaraq Səfəvi imperiyasının ərazilərini öz aralarında bölüşdürdülər. Osmanlı sultanı Rusiyanın Xəzəryanı əyalətlərdə işğal etdiyi əraziləri onun mülkiyyəti kimi tanıdı. Rusiya isə öz növbəsində Azərbaycan ərazilərinin Osmanlılar tərəfindən işğalına etiraz etməyəcəyini bildirdi. Səfəvi xanədanının varisi kimi II Təhmasib (1722-1732) ata-babalarının yaratdığı böyük dövlətin başqaları tərəfindən bölüşdürülməsini görsə də, bu mənzərəni müşahidə etməkdən başqa çarəsi yox idi.

XVIII əsrin 20-ci illərinin ortalarından Əfşar tayfasından çıxmış qeyri-adi sərkərdəlik qabiliyyətinə malik Nadir xanın yorulmaz fəaliyyəti sayəsində Səfəvi dövləti yenidən dirçəlməyə başladı.

---

[36] Nəcəfli T.H. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 320.

[37] Lokhart L. The Fall of the Safavi Dinasty and Afghan Occupation of Persia, p. 172; Mustafazadə T.T. XVIII yüzillik-XIX əsrin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, s. 18.

1726-cı ilin payızında Nadir xan Əfşar öz dəstəsi ilə II Təhmasibə qoşuldu. Onların birləşmiş dəstəsi Xəbuşandan* Məşhədə doğru hərəkət etdi. İki aylıq müqavimətdən sonra Məşhəd şəhəri ələ keçirildi.[38] Məşhədin azad olunması bütün Xorasan vilayətini nəzarət altına almağa imkan verdi və bir sərkərdə kimi Nadir xanı məşhurlaşdırdı.

1729-cu ildə Nadir xan əfqanların başçısı Əşrəf şah üzərində ardıcıl parlaq qələbələr qazanaraq noyabrın ortalarında İsfahana daxil oldu. II Təhmasib Səfəvi taxtına qaytarıldı. Həmin ilin sonunda Nadir xan ordusu ilə Şiraza yürüş etdi. Əşrəf şah döyüşə girməkdən çəkinərək Qəndəhara qaçdı və orada öldürüldü. Ölkədə əfqanların bir neçə il sürən hakimiyyəti Nadir xanın qüdrəti qarşısında dağıldı. Nadir xan Səfəvi hakimiyyətini bərpa etməklə fatehlik tarixinin ən yadda qalan səhifələrindən birini yazdı.

Səfəvi imperiyasının ərazi bütövlüyünü bərpa etmək üçün indi osmanlıları fəth etdikləri ərazilərdən sıxışdırıb çıxarmaq lazım idi. Həmin əraziləri diplomatik yolla geri almaq cəhdi uğursuz olduğuna görə, 1730-1735-ci illərin hərbi əməliyyatları zamanı Nadir xan Əfşar öz sərkərdəlik istedadı ilə Şərqin böyük imperiyalarından olan Osmanlı dövlətinin qoşunlarını geri çəkilməyə məcbur etdi, iradəsi və əzmkarlığı ilə fatehlik tarixinin daha bir zirvəsini fəth etdi və Cənubi Qafqazın mütləq hakiminə çevrildi. O, Səfəvi imperiyasının ərazilərini işğaldan tamamilə azad etdi. 1736-cı ilin martında Muğan qurultayında Nadir xan Əfşarın şah seçilməsi ilə Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu.

### *İqtisadi vəziyyət.*

Azərbaycan Səfəvi imperiyasının iqtisadiyyatının əsas sahələri kənd təsərrüfatı, ticarət və sənətkarlıqdan ibarət idi. Kənd təsərrüfatında əkinçilik üstün yer tuturdu. Təsərrüfatda süni suvarmadan geniş istifadə olunurdu.[39]

Azərbaycanın demək olar ki, bütün bölgələrində dənli bitkilər yetişdirilirdi. Evliya Çələbi Təbriz ətrafındakı əkin sahələrində yeddi növ iri dənəli buğda, paxla, arpa yetişdirildiyini yazırdı.[40]

Səfəvilər dövründə Azərbaycan öz ipəyi ilə dünya şöhrəti qazanmışdı. XVII əsrin 30-cu illərində ölkədə 10-12 min tay ipək istehsal olunurdu ki, onun da 3 min tayı Şirvanın, 2 min tayı Qarabağın payına düşürdü.[41]

---

* Xəbuşan – Şimali Xorasanda kənd.

[38] Bax: Astrabadi Mirzə Mehdi xan. Tarix-i Cahanqoşa-yi Nadiri. Tehran: 1368, s. 81-83; Süleymanov M.S. Nadir şah. Tehran: 2010, s. 127-129.

[39] Aleksandri Vinçenso. Səyahətnamə, /Venesiyalılar Şah Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Aleksandri). İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevindir. Bakı: Təhsil, 2006, s. 89.

[40] Evliya Çələbi Səyahətnaməsində Azərbaycan. Nəşrə hazırlayan Mehmet Rıhtım. Qafqaz Universiteti nəşriyyatı, Bakı: 2012, s.63.

[41] Адам Олеарий. Подробное описание путешествия Голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах. Пер. с немец. П.Барсова, Москва, 1870, с.791

Təsərrüfatda pambıqçılıq da mühüm yer tuturdu. Evliya Çələbi Naxçıvanda və Təbrizdə yeddi növ pambıq becərildiyini, Marağa, Xoyla yanaşı, Abşeronda da pambıq əkildiyi bildirir.[42]

Bağçılıq və bostançılıq çox geniş yayılmışdı. Münbit torpaqlarda dadlı meyvələr yetişdirilirdi. Adam Oleari təbrizi, kəsəyi adlanan üzüm növlərinin Təbriz və Ordubadda yetişdirildiyini, bu növ üzümlərə dünyanın başqa yerlərində rast gəlmədiyini qeyd edir.[43] Azərbaycanın bütün bölgələrində üzümlə yanaşı, alma, nar, armud, ərik, əncir, qoz, şaftalı, gavalı əkilib becərilirdi. Təbriz nəcmi-xələf armudu, peyğəmbəri armudu, səbət qovunu, nəcmi-əhmədi, xırdagilə üzümü ilə daha məşhur idi.[44]

Azərbaycan iqtisadiyyatında heyvandarlıq da mühüm yer tuturdu. Ölkədə yaylaq-qışlaq heyvandarlıq təsərrüfatı üstünlük təşkil edirdi. Qarabağ, Mil-Muğan, Şirvan çölləri qışlaqlar, Savalan, Kiçik və Böyük Qafqaz, Qarabağ, Talış dağları isə yaylalar idi. J.B.Tavernye yazırdı: "Azərbaycanın qoyun sürülərini görüb təəccüblənməmək olmaz. Tacirlər qoyunları alır və İstanbula qədər aparıb satırlar. Başqa ölkələrə satılan qoyunlar hesabına ölkəyə xeyli pul gəlir".[45] Səyyaha görə, Azərbaycandan qoyun dərisi Hollandiya və Yaponiyaya satılırdı.[46]

Səfəvilərin hakimiyyətə gəlişi torpaq münasibətlərinə də müəyyən dəyişiklik gətirdi. Torpaq münasibətlərinin məzmunu başlıca olaraq iri torpaq sahibliyi ilə yanaşı, xırda kəndli təsərrüfatlarının varlığı ilə bağlı idi. Dövlət torpaqları əraziyi-divani, şah və onun ailə üzvlərinin torpaqları isə xassə adlanırdı. Mülki və hərbi qulluqçulara xidmətlərinə görə, dövlət (divani) torpaqları hesabına şərti torpaq mülkiyyəti – tiyul paylanırdı. Ənənəvi vəqf torpaqları xeyli genişlənmişdi. Vəqf əmlakına geniş torpaq sahələri ilə yanaşı, kəhrizlər, dükanlar, sənətkar karxanaları, karvansaralar, dəyirmanlar, hamamlar və s. daxil idi.

Şəxsi torpaq sahibliyi mülk adlanırdı. Kəndlilərin ixtiyarında olan torpaqlar icma torpaqları adlanırdı. İcmaya ağsaqqal başçılıq edirdi.

Səfəvilər dövründə kəndlilər və sənətkarlar müxtəlif mükəlləfiyyətlər daşıyırdı. O dövrün fərmanlarında kəndlilərin və şəhər sakinlərinin ödədiyi 30-dan çox töycü və mükəlləfiyyətin adı çəkilir. Əhalinin ağır iqtisadi vəziyyəti Şah Təhmasibi 1565-ci ildə tamğa[*] vergisini ləğv etməyə məcbur etdi.[47]

Səfəvilər dövründə Azərbaycan sənətkarlıq və ticarətin inkişafı şəhərlərin daha da canlanmasına müsbət təsir göstərdi. Təbriz, Gəncə, Qəzvin, Ərəş, Şamaxı, Naxçıvan, Ərdəbil, Dərbənd və Culfa ölkənin əsas sənətkarlıq və ticarət mərkəzləri idilər.

---

[42] Evliya Çələbi Səyahətnaməsində Azərbaycan, s. 45, 63, 76, 107,

[43] Олеарий Адам. Подробное описание путешествия Голштинского посольства в Московию и Персию, с.756-757.

[44] Evliya Çələbi Səyahətnaməsində Azərbaycan, s. 63.

[45] Səfərname-ye Tavernye. Tərcome: Əbuturab Nuri, İsfahan, h.1346, s. 601.

[46] Yenə orada, s. 603.

[*] Tamğa – sənətkarlıq və ticarət müəssisələrindən toplanan və yollarda gömrük haqqı olaraq alınan vergi idi.

[47] Münşi İsgəndər bəy. Tarix-i alamara-yi Abbasi, s. 275-276.

Vinçenso Alessandri ölkədə 52 şəhərin olduğunu, həmin şəhərlər arasında Təbrizin aparıcı mövqe tutduğunu qeyd edir.[48] Osmanlı-Səfəvi müharibələri bəzi şəhərlərə (Təbriz, İrəvan, Naxçıvan, Gəncə, Şamaxı və b.) ciddi zərbə vursa da, onların iqtisadi inkişafının qarşısını tam ala bilmədi.

Ölkədə istehsal olunan sənətkarlıq məhsullarına yerli və xarici bazarlarda tələbatın artması ilə istehsal texnikası təkmilləşir, sənətin, peşənin yeni sahələri yaranırdı. Çoxəsrlik ənənələri olan sənətkarlıq sahələri də qalırdı. Şah Təhmasibin tamğa vergisini ləğv etməsi sənətkarlıq və ticarəti canlandırdı. Azərbaycan şəhərlərində sənətkarlar peşələr üzrə emalatxanalarda, emalatxanalar isə peşələr üzrə həmkarlarda birləşirdilər. Geniş yayılmış sənətkarlıq sahələrindən biri toxuculuq idi. Toxuculuq şəhərlərin iqtisadi həyatında mühüm yer tuturdu. Azərbaycanın ipək və pambıq parçaları dünya şöhrəti qazanmışdı.

Təbriz və bir çox şəhərlərdə ipək parça istehsal edən iri karxanalar açılmışdı. Pambıqdan, ipəkdən toxunan *diba*, *zərbaft*, *məxmə*r, *pərniyan*, *taft*a, *dalğalı ipək*, *atlas*, *səndəl*, *dəstar* adlı zərif parçaları çox məharətlə boyayır, müxtəlif naxışlar vururdular. Xam ipəyin "*Şirvani*", "*Xarvari*", "*Xodpəsənd*" və "*Şərbaft*" adlı çeşidləri geniş yayılmışdı. Toxuculuqda pambıq, qoyun və dəvə yunundan da geniş istifadə olunurdu. Evliya Çələbi yazırdı: "Təbrizdə olan ustad nəqqaş, rəssam, bənna, zərgər, dərzi başqa diyarda yoxdur. Hər işin ən əlası bu şəhərdə mövcuddur. Xüsusən burada toxunan bol qumaşlar və libaslıq ipəklər bu diyarda hazırlanır, digər diyarlara nəql olunur. Məxməri, darayısı dünyada məşhurdur".[49]

Həm şəhərlərin, həm də kəndlərin iqtisadi həyatı toxuculuq məmulatı istehsalı və xammal emalı ilə bağlı idi. Şirvan vilayəti böyük toxuculuq emalatxanasını xatırladırdı. Bu vilayətin xam ipəyi və ipəkçilik məmulatı beynəlxalq ticarət əhəmiyyəti kəsb edirdi. Şirvan xam ipək istehsalı sahəsində Yaxın və Orta Şərqdə Gilandan sonra ikinci yeri tuturdu. Xam ipək Təbrizdə, Marağada, Naxçıvanda, Gəncədə də hazırlanırdı. İstehsal olunan parçaların böyük qismi Avropanın və Asiyanın müxtəlif ölkələrinə ixrac olunurdu.

Azərbaycanda xalçaçılıq öz təkamül dövrünü keçirirdi. Azərbaycan xalçaları Avropada böyük şöhrət qazanmışdı. Xalçaçılıq həm bədii xüsusiyyətlərinə, həm də istehsalın həcminə görə öz inkişafının ən yüksək səviyyəsinə çatmışdı. Təbriz xalçaçılıq sənətinin şah əsərlərindən biri 1539-cu ildə hazırlanmış "Şeyx Səfi" xalısıdır.[50]

Səfəvi-Osmanlı müharibələri nəticəsində böyük dağıntıların olması tikinti işinə tələbatı xeyli artırmışdı. Bu tələbat sayəsində bir çox sənət sahələrində canlanma

---

[48] Aleksandri Vinçenso. Səyahətnamə, s. 89.
[49] Evliya Çələbi Səyahətnaməsində Azərbaycan, s. 63.
[50] Əfəndiyev R. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. Bakı: İşıq, 1980, s. 75.

müşahidə olunurdu. Təbriz bütün Şərqdə ən mühüm bədii sənətkarlıq (həkkaklıq, xəttatlıq, cildçilik və s.) mərkəzlərindən biri idi. Bakı neft hasilatı ilə məşhurlaşmışdı.

Avropa ilə Şərq arasındakı ticarətdə Azərbaycandan keçən karvan yollarının əhəmiyyəti böyük idi. Hindistan və Çindən başlanan beynəlxalq karvan yolları Azərbaycandan keçir, Aralıq dənizi və Qara dəniz sahillərinə, oradan isə Avropaya doğru uzanırdı. Azərbaycanı Avropa ilə Volqa-Xəzər su yolu da bağlayırdı. Təbriz bu dövrdə Azərbaycanın ən böyük ticarət şəhəri idi, ölkənin hər tərəfindən karvanlar bura məhsullar gətirirdi.[51] XVII əsrin ortalarında Təbrizdə yeddi min dükan, iki yüzə qədər karvansara, yetmişə qədər ticarət sarayı fəaliyyət göstərirdi.[52] Şərqin ən məşhur Qeysəriyyə adlı üstüörtülü bazarı Təbrizdə yerləşirdi.

Təbriz kimi Şamaxının da zəngin bazarı vardı. Şəhərin örtülü bazarında müxtəlif mallarla dolu dükanlar yerləşirdi. İpək, qızıl və gümüşlə işlənmiş zərxaralar, kaman, ox kimi əl işi malları çox idi. Şamaxıda çoxlu karvansaralar vardı. "Şah karvansarası"nda dünyanın bir çox yerlərindən gələn tacirlər qalırdılar. Rus tacirləri burada qalay, mis, dəri, xəz satır, yerli tacirlərlə geniş alış-veriş aparırdılar.[53]

### *İnzibati-idarə sistemi. Ordu.*

Ağqoyunlu dövlətinin varisi kimi tarix səhnəsinə çıxan Səfəvilər dövləti inzibati-idarə sistemi baxımından həmin özül əsasında qurulmuşdu. Şah İsmayıl dövründə sadə idarəetmə strukturuna malik olan Səfəvilər dövləti zaman keçdikcə yeni-yeni vəzifə və təsisatların yaradılması nəticəsində xeyli mürəkkəbləşərək XVII əsrin sonlarına doğru bürokratik mahiyyət kəsb etmişdi.

Səfəvi dövlətinin başçısı bir qayda olaraq "şah" ("xaqan"*) titulu daşıyırdı. Şahın hakimiyyəti irsi və qeyri-məhdud idi. Səfəvi şahları "Səfəviyyə" dini dərviş ordeninin "Mürşid-i kamili" hesab olunduqlarına görə dini hakimiyyəti də özlərində saxlayırdılar.

Səfəvi hökmdarının yanında məşvərətçi hüquqa malik Ali məclis fəaliyyət göstərirdi. Şah Təhmasibin dövründə şahın rəhbərlik etdiyi Ali məclisdə böyük təcrübəsi olan 12 nəfər iştirak edirdi.[54] Şah mühüm məsələlərin həllində Ali məclisi çağırır, yüksək dövlət xadimlərinin təkliflərini nəzərə alırdı. Mərkəzi idarəetmə aparatında şahdan sonra ikinci mövqedə vəkil təsisatı gəlirdi. Ali idarəetmə sistemində ən mühüm təsisatlardan biri də vəzarət institutu hesab olunurdu. Vəzarət institutuna baş

---

[51] Aleksandri Vinçenso. Səyahətnamə, s. 92.

[52] Evliya Çələbi Səyahətnaməsində Azərbaycan, s. 60.

[53] Адам Олеарий. Подробное описание путешествия Голштинского посольства в Московию и Персию, с.465.

* Səfəvi dövrünün farsdilli qaynaqlarında Şah İsmayılın ilk daşıdığı hökmdarlıq titulu "Xaqan" olmuşdur. Zeynalabdin Əli Əbdi bəy Səfəvi hökmdarını "Xaqan" (bax: Zeynalabdin Əli Əbdi bəy. Təkmilatül-əxbar, s. 32, 43, 49 və b.), Həsən bəy Rumlu "İsgəndər şanlı Xaqan" (bax: Rumlu Həsən bəy. Əhsənüt-təvarix, s. 373, 375, 377, 379 və b.), İsgəndər bəy Münşi isə "Süleyman şahlı Xaqan" kimi təqdim edirlər (bax: Münşi İsgəndər bəy. Tarix-i alamara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi), s. 77, 82, 84, 86 və b.). Bu bir daha göstərir ki, İsmayılın daşıdığı ilk hökmdarlıq titulu "Xaqan" olmuşdur.

[54] Venesiyalılar Şah Təhmasibin sarayında, s. 88.

vəzir rəhbərlik edirdi. Səfəvi dövlətinin idarə olunmasında din xadimlərinin rolu və nüfuzu çox önəmli yer tuturdu. Dövlətin ali dini idarəsinə sədr başçılıq edirdi. Şah Abbasın dövründə dövlətin dünyəviləşməsinin ən bariz əlamətlərindən biri o idi ki, Səfəvilərin ilk illərində dövlətin ən mühüm vəzifələrindən biri olan sədr əvvəlki nüfuzundan məhrum edilmişdi. Əvəzində şiə şəriəti və əqidəsi haqqında danışmaq səlahiyyəti olan müctəhidlər meydana çıxmağa başlamışdı.[55] Səfəvi dövlətinin mərkəzi maliyyə idarəsinə mustoufi əl-məmalik rəhbərlik edirdi. Onun nəzarəti altında çoxlu sayda maliyyə məmuru fəaliyyət göstərirdi. İsgəndər bəy Münşinin məlumatına görə, Şah Təhmasib dövründə Ali divanın məşhur olan böyük mustoufiləri on nəfər idi, onlardan yeddisi mustoufi əl-məmalik, üç nəfəri isə mustoufiyi-bəqaya (yəni vergi borcları üzrə xəzinədar – red.) idi.[56]

Səfəvi dövlətinin mərkəzi idarə sistemində mühüm təsisatlardan biri də xəlifət əl-xüləfa mənsəbi idi. O, "Səfəviyyə" sufi-dərviş ordeninin geniş yayılmış şəbəkəsinə rəhbərlik edirdi. Səfəvi dövlətinin idarə olunmasında iştirak edən yüksək rütbəli məmurlar içərisində vaqiyənəvis adlanan saray münşisinin ("dövlət katibi") önəmli rolu vardı. Mərkəzi idarə aparatında mühüm vəzifələrdən biri divanbəyi mənsəbi idi. Müəyyər əl-məmalik ("dövlətin əyyar vuranı") dövlətin pul siyasətinə cavabdehlik daşıyırdı.

Mərkəzi aparatda möhrdar – şahın möhürünü saxlayan, mirşikarbaşı – şahın ov tədbirlərinin başçısı, miraxurbaşı – mehtərlərin rəisi, mehmandarbaşı – xarici səfirlərin və qonaqların qəbulu və yerləşdirilməsinə məsul olan şəxs, münəccimbaşı, həkimbaşı, süfrəçibaşı və s. vəzifə sahibləri fəaliyyət göstərirdi.

Şah Abbasın dövründə Səfəvilər dövlətinin siyasi-ictimai əsaslarının dəyişməsi təbii olaraq inzibati quruluşda da öz əksini tapmışdır. Mürşidqulu xan Ustaclı köhnəlmiş vəkillik institutunu dirçəltməyə çalışarkən, həm vəkillik, həm də dövrün ruhuna uyğun gəlməyən əmirül-üməra vəzifəsi ləğv olundu.[57]

Azərbaycan Səfəvi imperiyası inzibati cəhətdən 4 valiliyə (Ərəbistan, Luristan, Gürcüstan, Kürdüstan) və 13 bəylərbəyliyə Azərbaycan (Təbriz), Çuxursəd, Şirvan, Qarabağ, Qəzvin, Həmədan, Herat, Astrabad, Kuhgiluyə (Fars), Kirman, Qəndəhar, Mərvi Şahicahan, Məşhəd) ayrılmışdı.[58]

Bəylərbəylikləri bəylərbəyilər idarə edirdi. Vilayətlərdən ilk altısı məhz tarixi Azərbaycan ərazisində yerləşirdi. Bəylərbəyliklər mahallara bölünmüş və şah tərəfindən təyin olunan mahal hakimləri – sultanlar və ya məliklər tərəfindən idarə olunurdu.

Şəhərlər şahın təyin etdiyi hakimlər tərəfindən idarə olunurdu. Şəhərin mülki

[55] Savory R. Safeviler Devrinde İran, s.101.
[56] Venesiyalılar Şah Təhmasibin sarayında, s. 343.
[57] Savory R. Safeviler Devrinde İran, s. 101.
[58] Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı: 2006, s. 101.

idarəsinə kələntər rəhbərlik edirdi. Kələntərlər şah tərəfindən təyin edilirdi. Kələntərin rəhbərliyi altında mülazimlər və nəqiblər fəaliyyət göstərirdi. Şəhər idarəçiliyində vilayət hakiminin nümayəndəsi olan darğa böyük nüfuza sahib idi. O, şəhərdə nizam-intizam qaydalarını qoruyur, sakinlər arasında mübahisəli məsələləri həll edir, cinayətkarlara qarşı mübarizə aparırdı. İri şəhərlərdə şeyxülislam və qazı vəzifələri də mövcud idi.

Şah Abbasın hərbi islahatlarına qədər Səfəvi dövlətində mərkəzləşdirilmiş nizami ordu yox idi. Səfəvi ordusu çərik adlanan vilayət hakimlərinin qoşununa və şah qoşununa (qorçular) bölünürdü. V.Alessandrinin verdiyi məlumata görə Şah Təhmasibin saray qorçularının sayı 5 min nəfər olmuşdu. Müharibə təhlükəsi yarandıqda vilayət hakimləri 60 min süvari qoşun toplaya bilirdi. Onların silahları qılınc, qalxan və bütün əsgərlərin istifadə edə bildikləri arkebuzlardır[*].... Arkebuzlar digər silahın istifadəsinə maneçilik törətməsin deyə, çiyindən arxaya atılırdı.[59]

Şah Abbasın hərbi islahatından sonra topçu, tüfəngçi və qulamlardan ibarət 44 minlik nizami ordu yaradıldı. 72 minlik yenidən təşkil edilmiş köhnə vilayət qoşunu (çərik) ilə birlikdə ordunun ümumi sayı 116 minə çatırdı. Yeni yaradılmış qulam ordusuna qullarağası, tüfəngçi korpusuna tüfəngçibaşı, şahın topçu korpusuna isə topçubaşı rəhbərlik edirdi. Səfəvi hərbi təşkilatında topçubaşı, qorçubaşı, qullarağası və tüfəngçibaşından sonra mühüm məqam sahibi hesab olunurdu. Məhəmməd Rəfi Ənsari "Dəsturül-müluk" əsərində yazırdı: "... Sarayın dörd əmirini möhtəşəm dövlətin sütunları sayırlar: birinci-qorçubaşı, ikinci-qullarağası, üçüncü-eşikağasıbaşı, dördüncü-tüfəngçiağasıdır.[60] Ənsarinin bu fikri qızılbaş tayfalarından təşkil olunan qorçuların dövlətdə öz nüfuzlarını qoruyub saxladıqlarını göstərir.

## Mədəniyyət.

Səfəvilər dövrü Azərbaycan mədəniyyətinin inkişafında mühüm mərhələni təşkil edir. Mədəniyyətin inkişafı xeyli dərəcədə ölkənin daxili iqtisadi vəziyyətindən, siyasi proseslərin gedişindən, beynəlxalq aləmdə baş vermiş iqtisadi əhəmiyyətli dəyişikliklərdən, Yaxın və Orta Şərq regionunda dövlətlərarası münasibətlərin xarakterindən asılı idi.

Bu dövrdə maarif sistemində xeyli irəliləyiş olmuş, Təbriz, Şamaxı, Ərdəbil, Marağa, Gəncə və başqa şəhərlərdə məscidlərin nəzdində ibtidai təhsil ocaqları açılmışdı. Məktəblərin çoxu vəqf hesabına idarə olunur, bəzi məktəblərin xərcini isə şah ödəyirdi.

XVII əsrin ortalarında Təbrizdə aralarında "Şeyx Səfi", "Həsən Meyməndi", "Təqi xan", "Sultan Həsən" və "Sultan Yaqub" adlı məktəblərin də olduğu 600 ibti-

[*] Arkebuz – XV-XVII əsrlərdə geniş istifadə olunan tətiksiz odlu silah (tüfəng) növüdür,.
[59] Venesiyalılar Şah Təhmasibin sarayında, s. 93-94.
[60] Ənsari Məmməd Rəfi. Dəsturül-müluk. Hökmdarlar üçün nizamnamə. Bakı: Mütərcim, 2015, s. 38.

dai məktəb, 47 mədrəsə fəaliyyət göstərirdi.[61] Mədrəsələr arasında "Cahanşah", "Nəsriyyə", "Sadiqiyyə", "Talibiyyə" və b. daha geniş şöhrət qazanmışdı. Şamaxı şəhərində 40 məktəb və 7 mədrəsə fəaliyyət göstərirdi.[62] Mədrəsələrdə ilahiyyat, hesab, cəbr, həndəsə, astronomiya, coğrafiya, tibb, fəlsəfə, tarix, ədəbiyyat fənləri öyrənilirdi. Adam Oleari Şamaxı mədrəsəsində astronomiyanın və Evklid həndəsəsinin tədris olunduğunu qeyd edir.[63]

Səfəvilər dövründə elmin digər sahələri də xeyli inkişaf etmişdi. Bu dövrdə Azərbaycanda məntiq, fəlsəfə, təbabət, riyaziyyat, astronomiya və sair sahələrdə xeyli görkəmli alim yetişmişdi. Onlar arasında Şükrülla Şirvani, Mövlana Mirzə Məhəmməd və Yusif Qarabaği çox böyük hörmət və nüfuz qazanmışdır. Dövrünün görkəmli alimlərindən biri də Şah İsmayılın nəvəsi İbrahim Mirzə (1543-1576) idi. O, ilahiyyat, fəlsəfə, tibb, həndəsə, hesab, nücum, məntiq, musiqi elmlərini gözəl bilirdi. İbrahim Mirzə riyaziyyat, nücum və musiqi elmlərində ustad sayılırdı.[64]

XVI-XVII əsrlərdə Azərbaycana, onun təbiətinə, tarixinə həsr olunmuş bir sıra əsərlər yazılmışdır. O dövrün tanınmış Azərbaycan tarixçilərindən biri Həsən bəy Rumludur. Onun 10 cildlik "Əhsənüt-təvarix" ("Tarixlərin ən yaxşısı") adlanan tarixi əsərinin ancaq IX-X cildləri dövrümüzə gəlib çıxmışdır. Burada XV-XVI əsrin 70-ci illərinin sonuna qədər tarixi hadisələr barədə ətraflı məlumatlar vardır. Əsər Azərbaycan tarixinə aid olan yeganə XVI əsr mənbəsidir ki, orada Şah Təhmasibin yarıməsrlik fəaliyyəti, dövrün hadisələri ətraflı şəkildə təsvir edilir.

Şah İsmayıla həsr edilmiş və müəllifi bəlli olmayan "Tarix-i Şah İsmayıl-i Səfəvi" adlı əsər onun uşaqlıq illərindən başlayaraq şahlıq taxtına çıxmasına qədər həyat yolunun çox mühüm dövrünü əhatə edir.

Azərbaycanın türkman elindən olan İsgəndər bəy Münşinin "Tarix-i aləmara-yi Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi"), Avropada iranlı Don Juan adı ilə məşhur, əslində isə bayat tayfasından olan Oruc bəyin Səfəvi dövlətinə həsr olunmuş tarixi-coğrafi əsəri, Zeynalabdin Əli Əbdi bəyin "Təkmilətül-əxbar" ("Xəbərlərin təkmili"), Qazi Əhməd Quminin "Xülasət ət-təvarix", Fəzli İsfahaninin "Əfzəl ət-təvarix" ("Tarixlərin ən ləyaqətlisi"), Məhəmməd Tahir Vəhidin "Abbasnamə", Məhəmməd Yusif Qəzvininin "Xolde-bərin" ("Əbədi cənnət"), Vəliqulu bəy Şamlının "Qisasül-xaqani" ("Şahların hekayətləri") əsərləri diqqəti xüsusilə cəlb edir.

Azərbaycanda təbabət də müəyyən dərəcədə inkişaf etmişdi. Dövrün bacarıqlı həkimləri arasında Əbülfəth Təbrizi, Qiyasəddin Əli Kaşi, Əli Təbrizi və İmadəddin Mahmud, Həkim Əla Təbrizi, Mir Ruhulla Qazi-Cahani daha çox tanınırdılar.[65] Səfə-

[61] Evliya Çələbi Səyahətnaməsində Azərbaycan, s. 59.
[62] Yenə orada, s. 102.
[63] Олеарий А. Подробное описание путешествия Голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах, с. 540, 541.
[64] Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi, I Kitab, s. 423.
[65] Bax: Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi, I Kitab, s. 353-357.

vilər dövründə həkimbaşı sarayda ən mühüm vəzifələrdən biri idi, ölkənin bütün həkimləri ona tabe idi. Əczaçılıq işi də xeyli inkişaf etmişdi. Ölkədə elə bir xəstəxana yox idi ki, orada əczaxana olmasın.

Azərbaycan poeziyasının zirvəsi dahi şair Məhəmməd Füzulinin yaradıcılığı bu dövrə aiddir. O, "Leyli və Məcnun", "Şikayətnamə" adlı ölməz əsərlər yaratmışdı. Füzuli qələminə məxsus fəlsəfi traktatda humanist, mütərəqqi ideyalar təbliğ edilir. Azərbaycan şairlərinin – Məhəmməd Əmaninin, Qövsi Təbrizinin, Məsihinin, Tərzi Əfşarın, Saib Təbrizinin yaradıcılığı Azərbaycan (türk) dilini və ədəbiyyatını zənginləşdirdi. Azərbaycan Səfəvi dövlətinin banisi, görkəmli dövlət xadimi Şah İsmayıl Azərbaycan türkcəsində şeirlər yazır və bu dildə yazanlara qayğı göstərirdi.

Ədəbiyyat və incəsənət xadimləri Şah İsmayılın xüsusi himayəsi altında fəaliyyət göstərirdilər. Süruri, Şahi, Matəmi, Tüfeyli, Qasımi kimi şairlər sarayda yaşayırdılar. Şairlər məclisinə Həbibi başçılıq edirdi.

Şah İsmayılın varisləri də ədəbiyyat və incəsənətin himayəçiləri idilər. Onun oğlu Sam Mirzə poetik məcmuənin müəllifi idi, Bəhram Mirzə isə gözəl xəttat, şair, musiqiçi və rəssam kimi məşhurlaşmışdı.

XVI əsr ədəbiyyatının səciyyəvi xüsusiyyətlərindən biri poeziyaya, sənətə, türk dilinə olan meylin təsir dairəsinin xeyli genişlənməsi, sənətin ictimai zemininin genişliyi idi.

XVII əsrdə Azərbaycan (türk) dili Səfəvilər dövlətinin həyatında ən layiqli yer tuturdu. 1685-1694-cü illərdə Səfəvi sarayında olmuş alman alimi və səyyahı Engelbert Kempfer yazırdı: "Səfəvilər sülaləsinin ana dili olan türk danışığı İran (Səfəvi – red.) sarayında geniş yayılmış dildir. Bu dil ölkə əhalisinin adi danışıq dilindən seçilir. Türk dili saraydan tutmuş yüksək rütbəli və mötəbər şəxslərin evlərinə kimi yayılmışdır və nəticədə elə olmuşdur ki, şahın hörmətini qazanmaq istəyən hər kəs bu dildə danışır. İndi iş o yerə çatmışdır ki, başı bədəni üçün dəyərli olan hər kəs üçün türk dilini bilməmək suç sayılır. Türk dili bütün Şərq dillərindən asandır. Türkcənin danışıq tərzindəki vüqar və səslənmə əzəməti onun sarayda və səltənət qəsrində yeganə danışıq dili olmasına gətirib çıxarmışdır".[66]

Səfəvilər dövründə Azərbaycan folklorunun bütün sahələrində yüksəliş nəzərə çarpırdı. Azərbaycan mədəni həyatının ən səciyyəvi cəhətlərindən biri folklorla musiqinin sıx əlaqədə inkişafı olmuşdur. Azərbaycan musiqisinin əsas inkişaf istiqamətləri xalq yaradıcılığı, ifaçılıq sənəti və aşıq yaradıcılığından ibarətdir. Hökmdarlar, xanlar və başqa tax-tac sahibləri ən yaxşı aşıqları saraya cəlb etməyə çalışmış və onları saray musiqiçisi kimi öz yanlarında saxlamışlar.[67] Xalq nəğməkarlarının – aşıqların fəaliyyəti sayəsində mühüm folklor əsərləri zəmanəmizə qədər saxlanılmışdır. Aşıq

[66] Onullahi S.M., Həsənov A.Q. Səfəvi hökmdarlarının daha 2 naməlum məktubu haqqında (Azərbaycan dilində dövlətlərarası yazışma tarixindən), // ADU-nun Elmi əsərləri, tarix və fəlsəfə seriyası, 1974, № 4, s. 85.

[67] Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı: 1985, s. 205

Qurbani, Aşıq Abbas Tufarqanlı, Sarı Aşıq, Aşıq Abdulla daha çox şöhrət qazanmışdılar. Məhz bu dövrdə "Qurbani", "Şah İsmayıl", "Aşıq Qərib", "Əsli və Kərəm" və "Koroğlu" dastanları təşəkkül tapmışdır.

Səfəvilər dövrü Təbriz miniatür məktəbinin ən yüksək inkişaf dövrüdür. Bu məktəbin ən görkəmli nümayəndələri Sultan Məhəmməd, Kəmaləddin Behzad və Sadıq bəy Əfşar olmuşlar. Şah İsmayıl tərəfindən Təbrizdə əsası qoyulan şah kitabxanası "incəsənət akademiyası" idi. Burada mahir ustalar – xəttatlar, rəngkarlar, zərgərlər, cildçilər, naxışçılar fəaliyyət göstərirdi. Budaq Münşi Qəzvini Şah Təhmasibin müəllimləri arasında nəqaşlardan Ustad Sultan Məhəmməd Musavvirin, Ustad Mirək İsfahani, Mir Musavvir və "Dost Divanə"nin olduğunu qeyd edir.[68]

İncəsənətin aparıcı sahələrindən biri də xəttatlıq idi. O dövrdə kitabların üzü xəttatlar tərəfindən köçürülürdü. Xəttatlar arasında "Şirin qələm" ləqəbli Mir Əli Təbrizinin oğlu Übeydullanın, Pirbudaq bəy Qaplan oğlu Şamlının, Mövlana Əlabəy Təbrizinin, Mövlana Məhəmməd Əmin Münşi Qəzvininin, Əli Rza Təbrizinin, Mövlana Məhəmməd Hüseyn Təbrizinin, Mirzə Məhəmməd Hüseynin və digər məşhur xəttatların hazırladıqları əlyazma nüsxələri xüsusilə qiymətləndirilirdi.[69]

Azərbaycan memarlığının inkişafında bu dövr xüsusilə seçilir. Azərbaycanın memarlıq incilərinin əksəriyyəti Təbriz, Naxçıvan, Bakı, Ərdəbil, Gəncə, Şamaxı, Qəzvin və s. kimi şəhərlərdə cəmləşmişdi. Azərbaycan memarlığının aparıcı istiqamətlərindən biri olan Şirvan-Abşeron məktəbi aparıcı mövqeyini saxlamışdı. Təbriz memarlıq məktəbinin rolu daha da artmışdı. Bu dövrdə müsəlman Şərqində özünün qədim tarixi, nəfis sənətkarlığı, qüdrətli memarlığı, zəngin mədəniyyəti, böyük ticarəti və intensiv şəhər həyatına görə Təbrizlə müqayisə oluna biləcək çox az şəhər tapıla bilər.[70] Təbriz memarlıq məktəbinə mənsub olan ustalar Yaxın və Orta Şərqin bir çox ölkələrində də müxtəlif təyinatlı memarlıq abidələri tikirdilər.

Dini-xatirə komplekslərinin tikintisi XVI əsrin Azərbaycan memarlığının inkişafında başlıca istiqamət olmuşdur. Dini təyinatlı tikililər arasında əsas yer məscidlərə məxsusdur. Dini-xatirə tikililərinin ən nadir incilərindən biri Ərdəbildəki Şeyx Səfi kompleksidir. Bu dövrdə inşa olunmuş türbələrin ən bitkin nümunələri Ərdəbilin Kəhrəlan kəndində Şeyx Cəbrayıl, Qusar bölgəsinin Həzrə kəndində Şeyx Cüneyd, Lənkəranda Şeyx Zahid, Şamaxıda Şeyx İbrahim, Əhərdə Şeyx Şəhabəddin Əhərinin, Qəzvində Şahzadə Hüseyn, Sultaniyyədə Həsən Kami türbələridir.[71]

Tanınmış memarlar tərəfindən Təbriz, Şamaxı, Bakı, Ərdəbil, Gəncə və Naxçıvanda bir sıra məscid, hamam, bazar, karvansara binaları da tikilmişdi. Memarlar

---

[68] Kazvini Budak Münşi. Safeviler. Cevahirül-Ahbar, s. 85.
[69] Bax: Münşi İsgəndər bəy. Tarix-i alamara-yi Abbasi, s. 359-365.
[70] Гейдаров Х.М. Города и городские ремесло Азербайджана XIII-XVII вв. Ремесло и ремесленные центры. Баку: Элм, 1982, с. 111-112; Qasımov X.S. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: Aspoliqraf, 2008, s. 281.
[71] Qasımov X.S. Orta əsrlərdə Azərbaycan mədəniyyət, s. 283.

içərisində Şəmsəddin Təbrizi, Şəmsəddin Şamaxılı, Əsir Əli Təbrizi, Mövlana Əlibəy Təbrizi, Hüseynbəy Müzəffərəli Təbrizi, Mirseyid Əli Təbrizi xüsusilə seçilirdilər.[72]

Səfəvilər dövrü (xüsusən XVI-XVII əsrlər) Azərbaycan mədəniyyəti özünün intibah dövrünü yaşamışdı. İntibahın mühüm xüsusiyyətlərindən biri Azərbaycan (türk) dilinin əhəmiyyətinin artması, ictimai həyatın başlıca sahələrində onun güclü mövqeyə malik olması idi. Bu dövrdə Azərbaycan (türk) dili və ədəbiyyatı yüksək inkişafa nail oldu. Türk dilinin dövlət, saray və diplomatiya dilinə çevrilməsi ilə ədəbi dil daha da zənginləşdi, doğma dildə yazanların sayı artdı. Şahlar, əmirlər, şəhər sənətkarları, məmurlar və ruhanilər şeirlər yazmağa aludə oldular.

[72] Yenə orada, s. 287.